Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir



# BİRLİKDƏ GENDER STEREOTİPLƏRİ VƏ GENDER ƏSASLI ZORAKILIĞA QARŞI: ATALIQ PROQRAMLARI ÜZRƏ MƏCMUƏ

# BİRLİKDƏ GENDER STEREOTİPLƏRİ VƏ GENDER ƏSASLI ZORAKILIĞA QARŞI: ATALIQ PROQRAMLARI ÜZRƏ MƏCMUƏ

BİRLİKDƏ GENDER STEREOTİPLƏRİNƏ VƏ GENDER ƏSASLI ZORAKILIĞA QARŞI

#eu4genderequality

# BİRLİKDƏ GENDER STEREOTİPLƏRİ VƏ GENDER ƏSASLI ZORAKILIĞA QARŞI: ATALIQ PROQRAMLARI ÜZRƏ MƏCMUƏ

**Müəllif:** Karine Lepillez, aparıcı gender müşaviri, Inclusive Societies (İnklüziv Cəmiyyətlər)
Tədqiqat işinə Corctaun Universitetinin bakalavriat pilləsinin tələbəsi Meysi Uustal köməklik göstərib.

Bu vəsait Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və BMT-nin Qadınlar üzrə Agentliyi və BMT-nin Əhali Fondu tərəfindən birlikdə həyata keçirilən "Avropa İttifaqı Gender Bərabərliyi naminə: Gender stereotiplərinə və gender əsaslı zorakılığa qarşı" proqramı çərçivəsində tərtib edilib.

Sənəddə əks olunan fikir və mülahizələr müəlliflərə aiddir və Avropa İttifaqının, BMT-nin Əhali Fondunun və ya BMT-nin Qadınlar üzrə Agentliyinin rəsmi mövqeyini əks etdirməyə bilər.

# MÜNDƏRİCAT


| | |
|---|---|
| İXTİSARLAR | 4 |
| GİRİŞ | 6 |
| ÜMUMİ MƏLUMAT | 7 |
| NÜMUNƏVİ TƏCRÜBƏLƏRİN ELEMENTLƏRİ | 8 |
| BU MƏCMUƏDƏN NECƏ İSTİFADƏ ETMƏLİ | 14 |
| NÜMUNƏVİ PROQRAMLARIN İCMALLARI | 15 |
| ATALARA DƏSTƏK PROQRAMI (AÇEV) | 15 |
| P (PROMUNDO) PROQRAMI | 18 |
| REAL ATALAR (“UŞAQLARIN XİLASI” Təşkilatı) | 22 |
| ƏLAVƏ PROQRAM İCMALLARI | 25 |
| ƏSİL ATA | 25 |
| ATALIQ MƏKTƏBİ (İctimai Təşəbbüslər Mərkəzi ) | 26 |
| MIESSAKIT | 27 |
| MİNSK YENİ ATALAR MƏKTƏBİ | 28 |
| ŞİMAL ÜSLUBU | 29 |
| İSLAHAT | 30 |
| SIEMPRE PAPA | 31 |
| ATALIQ MƏKTƏBLƏRİ (PAPA SCHOOLS) | 32 |
| KEYS TƏHLİLLƏRİ | 33 |
| KEYS TƏHLİLİ: SƏYYAR ATALIQ MƏKTƏBİ | 33 |
| KEYS TƏHLİLİ: BƏRPA YÖNÜMLÜ ATALIQ | 34 |

# İXTİSARLAR

| | |
|---|---|
| **AÇEV** | Ana və Uşaq Təhsil Fondu |
| **CPI** | İctimai Təşəbbüslər Mərkəzi |
| **VCT** | Vətəndaş cəmiyyəti təşkilatı |
| **ŞAMA** | Şərqi Avropa və Mərkəzi Asiya |
| **ŞAMARO** | Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Ofis |
| **Aİ** | Avropa İttifaqı |
| **ADP** | Atalara Dəstək Proqramı |
| **GƏZ** | Gender əsaslı zorakılıq |
| **İPZ** | İntim partnyor zorakılığı |
| **MQ** | Monitorinq və Qiymətləndirmə |
| **AYUS** | Ana, yenidoğulmuş və uşaqların sağlamlığı |
| **SIDA** | İsveçin İnkişaf sahəsində Beynəlxalq Əməkdaşlıq Agentliyi |
| **CRS** | Cinsi və reproduktiv sağlamlıq |
| **BMTƏF** | BMT-nin Əhali Fondu |
| **UNİCEF** | BMT-nin Uşaq Fondu |
| **BMT Qadınlar** | BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətləndirilməsi Məsələləri üzrə Agentliyi |
| **ÜST** | Ümumdünya Səhiyyə Təşkilatı |

# GİRİŞ

“Atalıq Məktəbləri”(“Papa Schools”) və ataların bir-birinə dəstək qrupları dünyanın hər yerində meydana çıxmış, ataların yalnız hamiləlik dövründən başlayaraq öz həyat yoldaşlarının və uşaqlarının sağlamlığı və rifahında vacib rol oynamadığını, həm də fəal atalığın kişilər üçün də əhəmiyyətli faydalarının olduğunu təşviq etmişdir. Çağdaş elmi tədqiqatlar göstərir ki, atalar öz övladlarının həyatında pozitiv şəkildə iştirak etdikdə, uşaqlarının daha yaxşı əqli və fiziki sağlamlığa malik olmaq, daha yaxşı təhsil göstəricilərinə sahib olmaq, daha yüksək idraki və sosial bacarıqlar əldə etmək, daha yüksək özünəhörmət hissinə, stressə davamlılığa malik olmaq və daha az davranış problemləri nümayiş etdirmək ehtimalı yüksəlir.[1] Aktiv valideynliklə məşğul olmağa vaxt ayıran atalar daha uzun yaşayır, narkotik vasitələrdən istifadə ehtimalı daha aşağı, əmək məhsuldarlığı daha yüksək olur, adətən daha az əqli və fiziki problemləri olur və öz uşaqları ilə yaxın bağlılığı olmayan atalarla müqayisədə daha xoşbəxt olduqlarını bildirirlər.[2]

Hazırkı məcmuə BMTƏF-nın Şərqi Avropa və Mərkəzi Asiyadakı (ŞAMA) ölkə nümayəndəlikləri və icraçı tərəfdaşları üçün zərərli gender normaları ilə mübarizəyə yönələn və kişiləri qayğı işinə və ev təsərrüfatı işlərinin idarə edilməsinə daha çox cəlb olunmağa stimullaşdıran atalıq proqramlarının hazırlanması və genişləndirilməsi zamanı istinad sənədi kimi istifadə üçün nəzərdə tutulur.

Proqramların təqdim olunan qısa xülasələri dünyanın müxtəlif yerlərində icra olunan müxtəlif "Atalıq məktəbi" (Papa School) proqramlarını təsvir edir. "Nümunəvi proqramlar üzrə icmallar" bölməsində təsvir olunan "Atalıq Məktəbi" (Papa School) proqramları ciddi şəkildə qiymətləndirilmiş proqramlardır. Onlar valideynlik bacarıqları, ataların uşağa qayğı göstərilməsində iştirakı, ata və uşağın qarşılıqlı fəaliyyəti və zorakılığın azaldılması (məs.anaya qarşı intim partnyor zorakılığı və ya uşağa qarşı zorakı intizam tədbirləri) daxil olmaqla bir və ya bir neçə göstərici üzrə müsbət nəticələrin əldə olunduğunu göstərən dəlilləri əks etdirir. Əlavə olaraq, "Atalıq məktəbi" (Papa School) proqramlarında onların nə dərəcədə uğurlu və dayanıqlı olduğunu müəyyən etmək üçün ictimaiyyətə məhdud səviyyədə açıq olan mövcud əsaslandırıcı dəlilləri əks etdirən qısa proqram icmalları daxil edilmişdir. Əlavə proqram icmalları istinad üçün təqdim edilir və xüsusilə Qərbi və Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində mövcud olan müxtəlif atalıq təlimi təşəbbüslərinin ümumi mənzərəsini təqdim edir.

---

[1]Allen, S. and Daly, K. (2007). The Effects of Father Involvement: An Updated Research Summary of the Evidence. Guelph, Canada: Centre for Families, Work & Well-Being, University of Guelph. vəBarker, G. (Ed.). (2003). Men’s Participation as Fathers in the Latin American and Caribbean Re- gion: A Critical Literature Review with Policy Considerations. Washington, DC: DB World Bank vəNock, S. and Einolf, C.j. (2008). The One Hundred Billion Dollar Man: The Annual Costs of father absence. National Fatherhood Initiative.

[2] DeGarmo, D.S., et al. “Patterns and Predictors of Growth in Divorced Fathers’ Health Status and Substance Use”. American Journal of Men’s Health. 2010; 4(1): pp. 60–70. vəSchindler, H.S. “The Importance of Parenting Contributions in Promoting Fathers’ Psychological Health”. Journal of Marriage and Family. 2010; 72(2): pp. 318-332. vəEisenberg, M.L., et al. “Fatherhood and the Risk of Cardiovascular Mortality in the NIH-AARP Diet and Health Study”. Human Reproduction. 2011; 26(12): pp. 3479-85.

# ÜMUMİ MƏLUMAT

Hazırkı məcmuə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən, BMT-nin Qadınlar üzrə Agenliyi və BMT-nin Əhali Fondu tərəfindən Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova və Ukraynada birgə həyata keçirilən "Avropa İttifaqı Gender Bərabərliyi naminə: Gender stereotiplərinə və gender əsaslı zorakılığa qarşı" layihəsi çərçivəsində hazırlanmışdır. Proqramın məqsədləri aşağıdakılardır:

1. Qadın hüquqlarını məhdudlaşdıran gender stereotipləri və patriarxal normalarla bağlı ictimai düşüncələrin dəyişdirilməsi
2. Uşaqlara qayğı göstərilməsinə kişilərin cəlb olunmasının və onların atalıq proqramlarında iştirakının artırılması
3. Sosial işçilərin (vasitəçilərin) və vətəndaş cəmiyyəti təşkilatlarının məişət zorakılığı törədən şəxslərə yönələn, zorakılığın önlənməsinə istiqamətlənən dəlil əsaslı proqramların necə həyata keçirilməsi barədə bilik və vasitələrinin artırılması

# NÜMUNƏVİ TƏCRÜBƏLƏRİN ELEMENTLƏRİ

Bu vəsaitə daxil edilən "Atalıq məktəbi" (Papa Schools) proqramlarına idarəetmə və ya texniki xarakterli bir və ya bir neçə element daxildir. Bu informasiya proqram üzrə qiymətləndirmələrə, proqramın icrasına və ya qiymətləndirilməsinə məsul olan tədqiqatçılar və ya praktiki mütəxəssislərlə müsahibələrə, onların kurrikulumunun məzmununun və metodologiyaların təhlilinə əsaslanır, habelə əsas plan və icra aspektlərini, məsələn, təlimçinin tələb olunan xüsusiyyətləri, təlim və dəstək və cəlbetmə strategiyalarını təsvir edən digər sənədlərin təhlilinə söykənir. İdarəetmə sahəsindəki nümunəvi təcrübələr uğurlu proqram idarəetməsi üçün nəzərə alınmalı amilləri göstərir; texniki xarakterli nümunəvi təcrübələr faydalı texniki məzmun və çərçivələri və ya nəzəri yanaşmaları ehtiva edir.

## Nümunəvi təcrübələrin quruluşu

**Cəlb olunma müddəti**
Tənqidi refleksiya, yeni münasibət və davranışların mənimsənilməsi, onların təhlükəsiz mühitlərdə təcrübədən keçirilməsi və sonradan qəbul edilməsi iştirakçının bu məzmunla təmasını, orta və uzunmüddətli perspektivdə refleksiya etmək və təcrübədən keçirmək üçün imkanların mövcudluğunu tələb edir. Sessiyaların stabil sayı və ya "norması" olmasa da, 3-5 ay müddətində həftəlik əsasda keçirilən iki saatlıq qrup sessiyaları və ya ev ziyarətləri ilə müşayiət olunan qrup sessiyaları tövsiyə edilir.

**Müəllim yox, bələdçi-təlimçi**
Müəllimlərdən çox zaman bütün sualların cavablarını bilmələri gözlənilsə də, bələdçi-təlimçilər iştirakçılar arasında dialoqa və tənqidi refleksiyaya şəraitin yaradılmasına köklənirlər. Atalıq məktəbləri (Papa Schools) köklü dəyişikliyi ehtiva edən gender yanaşmasından istifadə edərək, ataların öz həyatları barədə refleksiya etməsi, təcrübələrini bölüşməsi və bir-birindən öyrənməsi üçün açıq və təhlükəsiz mühitlər yaratmaqdan ötrü öyrətməyə deyil, bələdçilik etmək üsuluna söykənirlər.

**Yeni ata olan və ata olmağa hazırlaşan şəxslərin cəlb edilməsi**
Hamiləlik müddəti və atalığın ilkin dövrü yenidoğulmuş uşağın özü ilə gətirdiyi həyati dəyişikliklərin necə qəbul ediləcəyinə dair tövsiyə, bilik və bacarıqların daha xoş qarşılana biləcəyi əlverişli məqamdır. Bu dövr həm Atalıq Məktəbinə ataların cəlb olunması, həm də münasibət və davranışla bağlı dəyişikliklərin edilmə ehtimalının daha yüksək olduğu dövrdür.

**Rahat təlim məkanının seçilməsi**
Nəqliyyat xərcləri və məkanın yerinin tanış olmaması kimi maneələri nəzərə alaraq, fərqli əhali qruplarına daxil olan atalar üçün rahat və əlçatan olan bir məkan seçin. İqtisadi vəziyyət və rahatlıq amilləri ataların iştirak etmək qabiliyyətinə təsir edə bilər. Bir çox ölkələrdə Atalıq Məktəbləri ataların artıq doğumqabağı ziyarət etdiyi və valideynlik dərsləri ala bildiyi tibb müəssisələrində yerləşdirilir.

**Təlim üçün münasib vaxtın seçilməsi**
Atalıq Məktəbləri davamlı iştirakı stimullaşdırmaq üçün görüş günlərinin vaxtını nəzərə almalıdır. Bu məqsədlə, ataların iş qrafikinə uyğunlaşmaq üçün sessiyalar nahar vaxtı və ya axşam saatlarında keçirilməli ola bilər. Ataların nə vaxt boş ola biləcəyi barədə fərziyyələr irəli sürməyin, lakin hər sinfin ehtiyaclarını qarşılamaq üçün vaxtı uyğunlaşdırmağa meylli olun. Atalıq Məktəblərindən birində atalara seçim imkanları vermək üçün kurrikulum iki versiyada təqdim olunurdu - biri səhər, biri isə axşam saatlarında.

**Ataları müvafiq ünsiyyət metodları və məkanlardan istifadə etməklə cəlb etmək**
Hədəflədiyiniz ataların kimliyindən və daxil olduğu əhali qruplarından asılı olaraq, səmərəli cəlb etmə kanalları xeyli fərqli ola bilər. Çoxsaylı ünsiyyət vasitələrindən istifadə onların nəzərdə tutulan auditoriyaya çatma ehtimalını artıracaqdır. Istifadə edilə biləcək metodlara tibb müəssisələrində və ya doğum evlərində posterlərin yerləşdirilməsi, sosial mediada paylaşımlar, radio elanları, yaxud din və mədəniyyət ocaqları vasitəsilə şifahi şəkildə yaymaq daxil ola bilər. Tibb müəssisələri və doğum evləri vasitəsilə cəlb etmə də ata olmağa hazırlaşan şəxsləri və yeni ataları müəyyən etmək üçün faydalı üsuldur.

**Qrup sessiyaları** [3]
Qrup şəklində təlimin iştirakçılar üçün bəzi faydaları ola bilər, çünki onlar yalnız şəxslərarası/müşahidə əsaslı öyrənməyə şərait yaratmır, həm də sosial dəstək yaradır və səmərəli valideynlik etmək üçün valideynlərin öz rolunun effektivliyinə dairöz düşüncələrini formalaşdırmağa kömək edir ki, bu da daha sağlam davranışların qəbuluna töhfə verir. Qrup şəklində öyrənmək valideynliklə bağı narahatlığı azaltmağa kömək edir. Çünki iştirakçılar digərlərinin də oxşar çətinliklərlə qarşılaşdığını anlayır, ümumi problemlərin həlli üçün birgə çalışır və valideynliklə bağlı problemlərə ortaq həll yolları tapırlar.

---

[3]Digolo, L., et al (2019).Evidence Review: Parenting and Caregiver Support Programmes to Prevent and Respond to Violence in the Home (Dəlillərə baxış: evdə zorakılığın qarşısını almaq və reaksiya vermək üçün valideynlik və qayğı işinə dəstək proqramları)

## Nümunəvi təcrübələrlə bağlı yanaşma və məzmun

**Gender münasibətlərini dəyişdirməyə yönələn yanaşmadan istifadə**
Kişilərin aktiv valideynliklə məşğul olması və öz həyat yoldaşlarına hörmətlə və ədalətli şəkildə yanaşmasına mane olan zərərli və mənfi gender normaları və stereotipləri dəyişmək üçün bütün kurrikulumda gender münasibətlərini dəyişdirməyə yönələn yanaşma tətbiq etmək vacibdir. Gender münasibətlərini dəyişdirməyə yönələn fəaliyyət kişilər, qadınlar və qeyri-binar (genderkuir) şəxslər arasındakı qeyri-bərabər səlahiyyət münasibətlərini dəyişdirməyə yönəlir. Atalıq Məktəbi kurrikulumunda bu, cütlüklərin münasibətləri daxilində gender bərabərliyinin təşviqi, qadın və kişilər arasında qayğı işinin və məişət işlərinin bərabər bölünməsi, uşaqların cəzalandırılması əvəzinə pozitiv intizam tədbirləri, qadın və uşaqlara qarşı zorakılığın qarşısının alınması və uşaqların öz valideynləri ilə münasibətlərində onlar üçün gender bərabərliyinin modelləşdirilməsini tələb edir.

**Proqram ismarıclarının kişilərin atalıqla bağlı amallarına uyğunlaşdırılması**
Kişilərin təcrübə və ehtiyaclarını nəzərə almadan ana və uşaqların sağlamlığı üçün gender münasibətlərini dəyişdirməyə yönələn proqramlar kişilərin atalar qruplarına cəlb olunması və saxlanması baxımından çətinliklə üzləşəbilər. Kişilərin qayğı işinə daha çox cəlb olunmasının onlar üçün müxtəlif faydaları vardır. Buraya psixoloji, fiziki və cinsi sağlamlığın yaxşılaşması da daxildir [4]. İştirakçıların cəlb edilməsinə yönələn mesajlar bu faydaları aydın ifadə etməli və kişilərin atalıqla bağlı amallarına istiqamətlənməlidir.

**Məzmunun yerli kontekstə uyğunlaşdırılması**
Təməl anlayışlar və fəaliyyətlər eyni qalsa da, icmadakı ataların ehtiyaclarını və vəziyyətini nəzərə almaq üçün "Atalıq Məktəbi"nin kurrikulumu müxtəlif əhali qruplarını təmsil edən yerli ataların da daxil olduğu yerli maraqlı tərəflərdən ibarət heyət tərəfindən nəzərdən keçirilməli və düzəlişlər edilməlidir. Buraya konkret məsələlərin, məsələn, kişilərdə doğumsonrası depressiya, yaxud miqrant ataların və ya hərbçi ataların konkret ehtiyaclarının qarşılanması daxil ola bilər. Formativ tədqiqat və kontekstual adaptasiyaya kifayət qədər vaxt ayırdığınızdan əmin olun.

**Davranışın modelləşdirilməsi və interaktiv məşğələlər**
Proqramın strukturu sosial təlim nəzəriyyəsinə söykənir. Sessiyalara iştirakçıların öz təcrübələri və narahatlıqlarını bölüşməsi, praktiki məşğələlər və interaktiv məşğələlər (açıq sonlu hekayə, simulyativ oyun, rəsmlər) və ev tapşırığı (evdə refleksiya və praktikanı stimullaşdırmaq üçün) daxildir.

---

[4]Van Der Gaag, N., Heilman, B., Gupta, T., Nembhard, C., & Barker, G. (2019). State of the World's Fathers: Unlocking the Power of Men's Care. Washington, DC: Promundo-US.

**Gender və səlahiyyət anlayışlarını tədricən tətbiq etmək**

Gender və səlahiyyətlərin dinamikası barədə söhbətlər iştirakçılar üçün emosional baxımdan çətin və mübahisəli görünə bilər. Buna görə də, qrup daxilində etimadın qurulması və etibarlı söhbət mühiti yaratmaq üçün səriştəli təlimçilik tələb olunur. Qınaq ehtiva etməyən yollarla, ataların öz həyatları ilə əlaqələndirə biləcəyi mövzularla başlamaq daha səmərəli ola bilər. Buraya məsələn, münasibətlər, kişi və qadınların həyatları barədə danışmaq daxil ola bilər.

**Sağlam və müsbət münasibət bacarıqlarının yaradılması** [5]

Valideynlər və onların övladları, habelə intim partnyorlar arasında müsbət kommunikasiyanı gücləndirən proqramların ailədə intim partnyor zorakılığı və uşaqlara qarşı zorakılığı azaltmaq üçün ümumi qoruyucu faktorların yaradılması yolu ilə, ailədə zorakılığın qarşısının alınmasında təsirli olduğu müəyyən edilmişdir.

**Pozitiv təşviq və qeyri-zorakı intizam üsulları vasitəsilə uşağın davranışını idarə etmək üçün valideyn və himayəçilərin bacarıqlarının gücləndirilməsi.** [6]

Pozitiv intizam tədbirlərini əhatə edən proqramlara adətən valideynlərə uşaqların inkişaf mərhələsindən asılı olaraq necə davrandığını anlamaqda kömək etmək, valideynlərin uşaqlara qarşı real gözləntilərə malik olmasına kömək etmək və onları yanlış davranışa zorakı intizam metodları ilə cavab verməkdən çəkindirmək üçün pedaqoji məzmun daxildir.

Ev tapşırığının daxil edilməsi

Atalıq Məktəbi sessiyaları arasında ev tapşırıqlarının istifadəsi vasitəsilə ataların cəlb edilməsi praktiki və düşündürücü müzakirələrə səbəb ola və davamlı iştirak səviyyələrini artıra bilər. Tənəffüs texnikalarını məşq etmək və ya həyat yoldaşından öz ataları ilə yaşadığı təcrübələri soruşmaq kimi ev tapşırıqları proqram mesajları ilə ataların həyatları arasında əlaqələr yaratmağa kömək edə və pozitiv davranış dəyişikliyini təşviq edə bilər.

"Ailə günləri"nin daxil edilməsi

Ailə günləri atalar və həyat yoldaşlarının cütlük və ya ailə olaraq fəaliyyətlərdə iştirak etməsi üçün bir fürsətdir. Onlar bir araya gəlmək üçün mühit yaradır və ataların Atalıq Məktəbi sessiyalarında müzakirə olunan müsbət davranışları tətbiq etməsinə şərait

---

[5] Digolo, L., et al. (2019).Evidence Review: Parenting and Caregiver Support Programmes to Prevent and Respond to Violence in the Home s.12 (Dəlillərə baxış: evdə zorakılığın qarşısını almaq və reaksiya vermə k üçün valideynlik və qayğı işinə dəstək proqramları)

[6] Digolo, L., et al. (2019).Evidence Review: Parenting and Caregiver Support Programmes to Prevent and Respond to Violence in the Home s.12 (Dəlillərə baxış: evdə zorakılığın qarşısını almaq və reaksiya vermək üçün valideynlik və qayğı işinə dəstək proqramları)

## BU MƏCMUƏDƏN NECƏ İSTİFADƏ ETMƏLİ

Nümunəvi proqramların icmalları dünyanın müxtəlif yerlərində uğurla həyata keçirilən “Atalıq Məktəbi” ("Papa School") proqramlarını təsvir edir. Bu proqramlar onların valideynlik bacarıqları, uşaqlara qulluq işində ataların iştirakı, valideyn və uşaq arasında qarşılıqlı fəaliyyət və münasibətin keyfiyyəti və zorakılığın azaldılması ilə bağlı bir və ya daha artıq göstəricilər üzrə müsbət nəticələr əldə etdiyini göstərən mövcud dəlillərə əsasən seçilmişdir. "Nümunəvi proqram" olaraq seçilmiş bütün proqramlar üzərində ciddi qiymətləndirmələr aparılmış və onlar bütün icmallarda keçid formasında daxil edilmişdir. Hər bir nümunəvi proqramın icmalına aşağıdakı elementlər daxildir:

**Yer:** Proqramın icra olunduğu yeri göstərir.

**Arayış:** Proqramın qısa tarixçəsini, o cümlədən nə vaxt yaradıldığını, hansı təşkilatların cəlb olunduğunu və proqramın məqsədini əks etdirir.

**Fəaliyyət:** Bələdçi-təlimçilərin cəlb olunması, hazırlığı, üstünlük verilən təhsil göstəriciləri və təcrübələri barədə ətraflı məlumat təmin edir. Ataların cəlb olunması və bu məqsədlə nəzərə alınan xüsusiyyətləri, təlimin keçirildiyi yeri, eləcə də sessiyaların vaxtını və müddətini ətraflı təsvir edir. Mövcud olduğu halda, təlimdə əhatə olunan mövzular barədə məlumat təmin edilir.

**Vəsaitlər:** Mövcud olduğu halda, ictimaiyyətə açıq şəkildə dərc olunmuş təlim materiallarına keçidlər təqdim olunur.

**Dəlillər:** Proqramla bağlı aparılmış son qiymətləndirmə və dəyərləndirmələr vasitəsilə gəlinən əsas nəticələr barədə ümumi məlumat verilir.

**Qiymətləndirmələr:** Mövcud olduğu halda, ictimaiyyətə açıq şəkildə dərc olunmuş proqram qiymətləndirmələrinə keçidlər təqdim olunur. Həm keyfiyyət, həm də kəmiyyət yönümlü qiymətləndirmə və dəyərləndirmələr daxil edilir.

**Çətinliklər:** Proqramla bağlı aparılmış qiymətləndirmə və dəyərləndirmələr vasitəsilə müəyyən edilmiş əsas çətinliklər barədə ətraflı məlumat verilir.

**Öyrənilmiş dərslər:** Proqramla bağlı aparılmış qiymətləndirmə və dəyərləndirmələrə əsasən, proqramın icrası müddətində öyrənilmiş dərslər ətraflı təsvir edilir.

İstinad məqsədilə, "Atalıq Məktəbi"  (Papa School) proqramlarında onların nə dərəcədə uğurlu və dayanıqlı olduğunu müəyyən etmək üçün ictimaiyyətə məhdud səviyyədə açıq olan mövcud əsaslandırıcı məlumatları əks etdirən daha qısa proqram icmalları daxil edilmişdir. Bunlar dünyanın müxtəlif yerlərində, xüsusilə Qərbi və Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində icra edilmiş proqramların qısa təsvirləridir. Hər bir əlavə proqram icmalına yer, arayış, fəaliyyət və aşağıdakı element daxildir:

**Monitorinq və Qiymətləndirmə:** Proqram fəaliyyətləri üzərində monitorinqin necə və kim tərəfindən aparıldığını ətraflı təsvir edir və proqram üzrə aparılmış qiymətləndirmələr barədə məlumat təmin edir.

## NÜMUNƏVİ PROQRAMLARIN İCMALLARI

### ATALARA DƏSTƏK PROQRAMI (AÇEV)

**Yer:** Türkiyə

**Arayış**

Ana və Uşaq Təhsil Fondu (AÇEV) 1990-cı illərin sonunda, fondun Analara Dəstək Proqramı vasitəsilə qadınlara təqdim olunan eyni növ valideynlik bilikləri və dəstəkdən ataların da faydalana biləcəyini başa düşmüş və buna görə də Atalara Dəstək Proqramını (ADP) yaratmışdır. Atalıq təlimi sessiyaları əvvəlcə İstanbul və Kocaeli şəhərlərində pilot qaydada icra olunmuş, daha sonra genişlənərək bütün sosial-iqtisadi qruplara daxil olan ataları əhatə etmişdir. ADP proqramını icra etməyə davam edən AÇEV 1996-cı ildən bəri Türkiyənin 55 şəhərində 60 mindən çox atanı əhatə edib. ADP məzunları və təlimçiləri hazırda özlərinin atalardan ibarət şəbəkələrini və layihələrini yaradır və öz icmalarında gender bərabərliyini təşviq edir. Proqramın digər donorlarına gəldikdə, BMT-nin Etimad  Fondu (Trust Fund) 2019-cu ildə ADP proqramını maliyyələşdirmiş və qiymətləndirmişdir.

**Fəaliyyət**

Atalıq təlimi sessiyaları adətən həftədə bir dəfə olmaqla, 13 həftə davam edir. AÇEV atalıq məktəbi proqramını icra etmələri üçün məktəb müəllimlərinə təlim keçir. Bələdçi-təlimçilər üçün keçirilən on günlük intensiv təlimdə əsas diqqət interaktiv tədris metodlarına və qrupda birliyin qurulmasına yetirilir. Proqram 2-10 yaşlı uşaqları olan atalara yönəlir və onları əsasən məktəblər vasitəsilə cəlb edir. Kursda iştirak edən ataların əksəriyyətinin yaşı 30-40 yaş arası olsa da, ümumilikdə onların yaşı 20-50 yaş arasında dəyişir. Onların əksəriyyəti işləyir və həyat yoldaşları isə evdə tam qrafiklə uşağa baxır. Kişilər iştirak etmək üçün yazıb-oxumağı bacarmalıdır.

Atalıq təlimi sessiyaları adətən aşağıdakı mövzuları əhatə edir:
• Açılış görüşü: müqavilənin yaradılması
• Atanın rolunun uşaq üzərində təsiri
• Valideynlik üslubları
• Uşağın qəbulu; fəal dinləmə
• "Mən" dilindən istifadə
• Pozitiv intizam metodları (I sessiya)
• Pozitiv intizam metodları (II sessiya)
• Uşağın inkişafı barədə ümumi məlumat
• İdraki inkişaf və oxuma
• Uşaqların sosial inkişafı
• Uşaqların emosional inkişafı
• Oyunun əhəmiyyəti
• Tətbiq olunan münasibətlər və bacarıqlar

**Vəsaitlər**
Təlim materialları ictimaiyyətə açıq deyil.

**Dəlillər**
2019-cu ildə BMT-nin Etimad Fondu tərəfindən qarışıq üsullar əsasında aparılan qiymətləndirmə müəyyən etdi ki, ADP proqramı üzrə təlimdən sonra, proqramda iştirak edən ataların 43%-i öz üzərinə uşağın inkişafı və məişət işləri ilə bağlı daha çox öhdəlik götürmüş və qeyri-zorakı ünsiyyət metodları tətbiq etmişdir. Bundan əlavə, kişilərin ailə başçısı olması stereotipini qəbul edən ataların sayında 40% azalma olmuşdur. 2009-cu ildə Əhali Şurası tərəfindən müfəssəl müsahibələrdən istifadə etməklə aparılan tədqiqat vasitəsilə müəyyən edilmişdir ki, təlimdən sonra iştirakçılar ata vəzifəsini icra etdikləri üçün qürur hiss etdiyini, öz uşaqları ilə ünsiyyətdə dəyişikliklər olduğunu - daha çox qulaq asdıqlarını, öz əsəblərini daha yaxşı idarə etdiklərini, döymək əvəzinə pozitiv intizam tədbirlərindən istifadə etdiklərini, uşaqlarla daha çox vaxt keçirdiklərini, xüsusilə oynadıqlarını bildirib. Şifahi dəlillər uşaqların təhsil göstəricilərində mümkün yaxşılaşmaların olduğuna işarə edir.

**Qiymətləndirmələr**
- Əhali Şurası (2009). Bəs məni necə xatırlayacaqsan, övladım? Türkiyədə atalığın yeni tərifi
- Koçak, A. (2004) Atalara Dəstək Proqramı üzrə qiymətləndirmə hesabatı.[8]
- BMT-nin Qadına qarşı Zorakılığın Aradan Qaldırılması üzrə Etimad Fondu (2019) Final External Evaluation Report Project “Fathers Are Here for Gender Equality”.[9] (“Atalar gender bərabərliyinə dəstək verir” layihəsinin yekun xarici qiymətləndirmə hesabatı)

---

[7] https://knowledgecommons.popcouncil.org/departments_sbsr-pgy/160/
[8] Https://www.acev.org/wp-content/uploads/2019/10/6.evaluation_report_of_the_father_support_program.pdf
[9]https://www2.unwomen.org/-/media/fieldofficeuntf/publications/2019/final evaluations/c19_tur_acev_fe-compressed.pdf?la=en&vs=2047

**Çətinliklər** [10]

AÇEV öz proqramlarının icrasında gender və gender bərabərliyi ilə bağlı məsələlərin həllində mədəniyyət yönümlü çətinliklərlə üzləşdi, çünki bir çox iştirakçıların genderlə bağlı düşüncələri mühafizəkar xarakterli idi. Heyət üzvləri bu mövzuya mümkün qədər həssas yanaşmış, məsələn, həm qız, həm oğul övladlarının inkişaf üçün eyni səviyyədə dəstəyə ehtiyac duyduğunu vurğulamışdır. Onlar kafelərdə dostlarla vaxt keçirmək ənənəsini misal göstərərək vurğuladı ki, hətta öz ataları onlarla uşaqlıq dövründə vaxt keçirməmiş olsa belə, onların özlərinin axşam yeməyindən sonra öz uşaqları ilə az da olsa vaxt keçirməsi böyük dəyişikliyə səbəb ola bilər. Heyət üzvləri həmçinin ər-arvad münasibətlərini gündəmə gətirərək, bunu hər kəsin öz fikir və emosiyalarını ifadə edə bildiyi, açıq və demokratik ev mühiti kimi qurmağın əhəmiyyətini təsvir etdilər.

**Öyrənilmiş dərslər** [11]

İlk vaxtlardan etibarən, Atalara Dəstək Proqramı çərçivəsində demokratik və komanda işinə yönələn mühit yaradıldı. Heyət üzvləri hesab edirdi ki, onlar atalar arasında qarşılıqlı hörmət və açıqlıq prinsiplərini təşviq edirlərsə, bu davranışları özləri nümunəvi şəkildə nümayiş etdirməlidir. Proqramın məzmununun təkmilləşdirilməsi ilə yanaşı, bu təməl prinsiplərə sonralarda əməl edildiyi bildirilir. Proqramın icrasına cavabdeh heyət daxilində demokratik mədəniyyətin təbliği ailələrdə demokratik ənənələrin yaradılması üçün ilkin şərtdir.

[10] Barker, Gary, Deniz Dogruoz, and Debbie Rogow. 2009. "And how will you remember me, my child? Redefining fatherhood in Turkey," Quality/Calidad/Qualité no. 19. New York: Population Council.(Bəs məni necə xatırlayacaqsan, övladım? Türkiyədə atalığın yeni tərifi)

[11] eyni mənbə

## P (PROMUNDO) PROQRAMI

**Yer:** Qlobal

**Arayış**

"Promundo" təşkilatı tərəfindən yaradılan və Braziliya sosioloqu Paulo Freyredən ilhamlanan "P" Proqramı yanaşması "tənqidi şüurluluğun artırılması" (portuqal dilində "conscientização") prosesi vasitəsilə atalara istiqamət verərək, onları şəxsi inkişafın təşviqinə yönələn bir formada, gender bərabərsizliyi ilə bağlı təcrübələri dəstəkləyən və çərçivələyən mədəni şərtlər barədə tənqidi düşünməyə stimullaşdırır. Bu yanaşmanın məqsədi ataların atalıqdan irəli gələn rolları üzərlərinə götürməsini çətinləşdirən gender əsaslı rollarla bağlı məhdudlaşdırıcı stereotipləri mübahisələndirməsinə və dəyişməsinə şərait yaratmaqdır. "P" Proqramı ilkin olaraq bir sıra Latın Amerikası ölkələrində və Ruandada hazırlanıb icra edilsə də, hazırda "PARENT" Proqramı çərçivəsində Portuqaliya, İtaliya, Litva və Avstriyaya yönəlməklə, Avropa mühiti üçün uyğunlaşdırılmaqdadır.

**Fəaliyyət**

"P" Proqramı atalara və analara (valideyn olmağa hazırlaşanlar və ya hazırda azyaşlı uşaqları olanlar) yönələn dəlil əsaslı təşəbbüsdür. "P" Proqramı qrup əsaslı, strukturlu kurrikuluma əsaslanır. Bu kurrikulum valideynlərə və himayəçilərə öz uşaqlarına bəsləyici qayğı təmin etmək üçün dəstək göstərmək məqsədilə rahat imkanlar yaratmaq və qeyri-zorakı, operativ və emosional baxımdan dəstəkləyici qarşılıqlı təmas vasitəsilə erkən təlimi təşviq etmək məqsədi daşıyır. Kurrikulum pozitiv valideynlik , gender və maskulinlik nəzəriyyələrinə əsaslanır. İlkin "P" Proqramına cinsi və reproduktiv sağlamlıqla bağlı sessiyalar daxil olsa da, sonradan edilmiş uyğunlaşdırmalar ailədə zorakılığın qarşısını almaq məqsədilə valideynlik [12] bacarıqlarının və sağlam münasibətlər qurmaq bacarıqlarının gücləndirilməsinə köklənmişdir. Buraya valideyn-uşaq münasibətinin keyfiyyətini yaxşılaşdırmağa, valideynin çevik reaksiyasını, inkişaf mərhələləri və pozitiv intizam tədbirləri barədə biliklərini artırmağa yönələn modullar daxildir. Sessiyalar valideynlik potensialını gücləndirməyə və gündəlik həyatda istifadə ediləcək konkret valideynlik bacarıqları, o cümlədən pozitiv intizam texnikaları aşılamağa istiqamətlənir. Kurrikulum həmçinin ədalətli gender rolları və qayğını, cütlüklər arasında kommunikasiyanı və müştərək valideynliyi, sağlam münasibətləri, emosiyaların ayırd edilməsini və tənzimlənməsini, münaqişələrin həllini və stressin idarə edilməsini stimullaşdıran məzmuna malikdir.

"P" Proqramının müddəti qrup müzakirələri seansları formasında 10-15 həftə davam edə bilər. Adətən seanslar həftəlik 2.5 saat olmaqla, 10-15 həftə davam edir. Bələdçi-təlimçilər təməl gender və səlahiyyət anlayışlarına köklənən 6-10 günlük təlimdən keçir, özləri bu məsələlər barədə tənqidi refleksiya ilə məşğul olur, həm öyrətmək əvəzinə

---

[12] Ümumdünya Səhiyyə Təşkilatı (2018). Nurturing care for early childhood development: a framework for helping children survive and thrive to transform health and human potential (Erkən uşaqlıq dövründə inkişaf üçün bəsləyici qayğı: sağlamlıq və insan potensialının transformasiyası üçün uşaqların sağ qalması və inkişaf etməsinə kömək edən çərçivə)

üfüqi qrup dialoqlarını özləri birbaşa təcrübədən keçirir, həm də bu cür dialoqları aparmağı praktikada həyata keçirirlər. Onlar bütün cavablara malik olmağa çalışmaq əvəzinə, dialoq və tənqidi refleksiyanı stimullaşdırmaq üçün açıq və rahat mühit yaratmağa həvəsləndirilir. Seanslarda çox zaman birgə iştirakı ehtiva edən məşğələlər, o cümlədən qrup müzakirələri ilə sonlanan videolar, simulyativ oyunlar və qrupda əhatə olunan mövzuları tətbiq etmək və möhkəmləndirmək üçün ev tapşırıqlarından istifadə edilir. Onlar ya ancaq kişilərdən ibarət, ya da fərqli cinslərdən ibarət cütlüklər şəklində çalışırlar. Proqram təlimçiləri feminist və proqressiv sosial ədalət təşkilatlarından olan, birgə müzakirələri aparmaq baxımından təcrübəyə malik olan və genderlə bağlı öz qərəzli düşüncələrini araşdırmış təlimçilər arasından seçməyi tövsiyə edir. Proqram kişilər tərəfindən qayğının göstərilməsində müxtəlifliyin dəyərini təşviq edir və həm bioloji, həm də qeyri-bioloji uşaqları olan, atalığın bioloji əlamətlə məhdudlaşmadığına və kişilərin uşaqla qura bildiyi qayğı münasibətinin keyfiyyəti və dərinliyində özünü göstərdiyinə inanan ataları hədəfləyir.

"P" proqramı adətən aşağıdakı mövzuları əhatə edir:
• Cins, gender və valideynlik
• Atanın təsiri
• Ailə planlaşdırılması
• Hamiləlik
• Doğuş
• Qayğı
• Gender amili təcrübədə
• Qadına qarşı zorakılığın qarşısının alınması
• Uşaqların ehtiyacları və hüquqları
• Qayğı işinin bölünməsi
• Cütlüklər arasında kommunikasiya
• Pozitiv intizam tədbirləri
• Emosiyaların tənzimlənməsi

**Vəsaitlər** [13]
- Program P: A Manual for Engaging Men in Fatherhood, Caregiving, and Maternal and Child Health.[14] (Kişilərin atalıq, qayğı və ana və uşaq sağlamlığına cəlb olunması üçün vəsait)
- A More Equal Future: A MenCare Manual to Engage Fathers to Prevent Child Marriage in India.[15] (Daha bərabər gələcək: “MenCare” təşkilatınınHindistanda kişiləri uşaq nikahının qarşısının alınmasına cəlb etmək üçün vəsaiti)

[13] İngilis, ərəb, ispan, portuqal və rus dilində vəsaitləri buradan əldə edə bilərsiniz
[14] https://promundoglobal.org/programs/program-p/
[15] https://promundoglobal.org/resources/a-more-equal-future-a-mencare-manual-to-engage-fathers-to-prevent-child-marriage-in-india/

**Dəlillər**

"P" Proqramı dünyanın ən azı 18 ölkəsində uyğunlaşdırılıb tətbiq edilmişdir. 2018-ci ildə Ruandada proqramın randomizasiya olunmuş nəzarət tipli tədqiqatı vasitəsilə müəyyən edildi ki, 21 aydan sonra, proqramda iştirak edən qadınların 33%-i öz həyata yoldaşları tərəfindən zorakılığa məruz qoyulduğunu bildirib, nəzarət qrupunda isə bu göstərici 57% olub ; kişilərin, qadınları 2.09 ziyarətdə müşayiət etdiyi bildirilib, nəzarət qrupunda isə bu göstərici 1.57 olub [16]; kişilər uşağa qayğı və məişət işlərinə gündəlik 2.26 saat sərf etdiyini bildirib, nəzarət qrupunda isə bu göstərici 1.40 saat olub. Digər qiymətləndirmələrin keyfiyyət yönümlü nəticələri göstərir ki, kişilər öz uşaqları və həyat yoldaşları ilə münasibətini yaxşılaşdırıb, çətin emosiyaları idarə etməyi öyrənib və narkotik vasitə və alkoqoldan sui-istifadəni azaldıb. Son dövrlərdə Livanda sorğu anketləri, fokus qrupları və iştirakçılarla geniş müsahibələr vasitəsilə "P-ECD" proqramı ilə bağlı aparılan qiymətləndirmə aşağıdakıları müəyyən etdi: həm kişilər, həm də qadınlar tərəfindən zorakılığa bəraət qazandırılması və ya ona dözümlü yanaşma səviyyəsində nəzərə çarpan azalmalar (32%-dən 14%-ə); həm kişilər, həm də qadınlar tərəfindən uşaqlara qarşı sərt fiziki intizam tədbirlərindən istifadədə nəzərəçarpan azalma (20-50%); kişilərin ev işləri və qayğı işində fəal iştirakında önəmli artımlar (30-50%); cütlüklər arasında özlərinin və tərəf müqabillərinin narahatlıqları və hissləri barədə kommunikasiyanın artması.

**Qiymətləndirmələr**

- Promundo (2018) Gender-Transformative Bandebereho Couples' Intervention to Promote Male Engagement in Reproductive and Maternal Health and Violence Prevention in Rwanda.[17] (Ruandada reproduktiv sağlamlıq və ana sağlamlığı, zorakılığın qarşısının alınmasına kişilərin cəlb olunmasının təşviqi üçün gender münasibətlərinin dəyişməsinə yönələn "Bandebereho" cütlüklərə dəstək proqramı)
- Promundo (2020) The Pilot of Program P-ECD in Lebanon: Evaluation Results and Lessons Learned.[18] (Livanda P-ECD proqramının pilot icrası: qiymətləndirmə nəticələri və öyrənilmiş dərslər )

**Çətinliklər** [19]

Öyrənilmiş dərslər "P" proqramının uyğunlaşdırılaraq həyata keçirildiyi ölkələr üçün məxsusi olsa da, dünyadakı icraçıların bir çoxu ataların seçilməsi və iştirakının saxlanması ilə bağlı çətinliklərlə üzləşir. Ataların proqramda iştirak edə biləcəyi vaxtların müəyyən edilməsi çox zaman çətindir. Bu, kişilərin gün və həftə ərzindəki iş qrafiklərinin

[16] Qeyd edək ki, nəzarət qrupları dedikdə, Atalıq Məktəbi ("Papa School") təlimindən keçmiş atalarla müqayisə üçün təşkil edilən qruplar nəzərdə tutulur. Nəzarət qruplarındakı atalar Atalıq Məktəbi təlimindən keçməyib.

[17]https://promundoglobal.org/resources/gender-transformative-couples-intervention-male-engagement-rwanda-randomized-controlled-trial/

[18] https://promundoglobal.org/resources/the-pilot-of-program-p-ecd-in-lebanon-evaluation-results-and-lessons-learned/

[19] Promundo-US and Plan International Canada. (2020). Recruitment and Retention of Male Participants in Gender-Transformative Programs. Washington, DC: Promundo.

dəyişməsi ilə bağlıdır. Atalara, fəal valideynliyin kişilər üçün faydalarını və bunun onların ehtiyaclarına, suallarına və məqsədlərinə necə cavab verdiyini aydın izah etmədən, yalnız uşaq və qadınlar üçün faydaları vurğulayan mesajlar verdikdə, ataları cəlb etmək çətinləşir. Sonuncusu, iştirakçıların üst-üstə düşməyən iş qrafikləri və ya gündəlik gəlir gətirən fəaliyyətlərdə iştirak etmək ehtiyacının daha böyük olması kimi iqtisadi məhdudiyyətlər də çətinliklər doğura bilər.

**Öyrənilmiş dərslər** [20]

Livanda proqram heyəti seansları axşam, iş saatlarından sonra, yəni kişilərin boş olduğu vaxtlarda keçirirdi. Bu, proqramın heyəti üçün əlavə iş yükü yaratsa da, iştirakçıların məmnunluğu ilə nəticələndi. Proqram çərçivəsində həmçinin müəyyən edildi ki, kənd yerləri ilə müqayisədə Beyrutun şəhər ərazilərində kişiləri cəlb etmək daha çətin idi, çünki kənd yerlərində kişilərin gündəlik iş qrafiki daha sərbəst idi. Sonda heyət öz icra hədəflərinə nail olmaq üçün cənubda yerləşən kənd yerlərindən daha çox sayda iştirakçı cəlb etdi. İnkişaf etməkdə olan cənub ölkələrində "P" proqramının icrası zamanı “Promundo”nun əməkdaşları müəyyən etdi ki, proqramlar kişilərin yaxşı ata olmaq amallarına yönəldikdə, kişilərin dərslərə qoşulmaq və iştirak etməyə davam etmək ehtimalı daha yüksək idi. Buna görə də onlar fəal qayğının geniş spektrli faydalarını, o cümlədən fiziki, psixoloji və cinsi sağlamlığa müsbət təsirlərini təşviq etdi. Bir çox şəhər, kənd və aztəminatlı icmalarda nəqliyyat xərclərinin qarşılanması iştirakçıların çox zaman üzləşdiyi əngəllərdən birini azaltmış oldu və bu, onların proqramda davamiyyətini qoruyub saxlamağa kömək edə bilir. İnkişaf etməkdə olan cənub ölkələrində icra olunan "P" proqramlarının əməkdaşları onu da müəyyən etdi ki, bəzi icmalarda və xalqlarda atalara qarşı gözləntilərin aşağı olması onları proqramda iştirak etməkdən çəkindirirdi, çünki onlar düşünürdü ki, "yaxşı ata" olmaqla bağlı mədəni gözləntilərə cavab verirlər. Bu, təkmilləşməyə mane olurdu. Bu məsələni aradan qaldırmaq məqsədilə, heyət atalığın tərifinə həm də bəsləyici qayğı göstərən tərəf olmağı (sadəcə, ailənin təminatçısı və ya qoruyucusu olmaq əvəzinə) daxil etmək üçün sosial və davranış dəyişikliklərini təşviq edən maarifləndirmə kampaniyalarını daxil etdi. "Yaxşı ata olmağ"ın tərifinin genişləndirilməsi ailə üzvlərinin diqqətini çəkdiyindən və prosesin əvvəlindən etibarən onların genişləndirilmiş tərifə inamını qazandığından, iştirak və davamiyyəti yaxşılaşdırmağa kömək etdi.

[20] Eyni mənbə və Promundo-US and ABAAD. (2019). The Pilot of Program P-ECD in Lebanon: Evaluation Results and Lessons Learned. Washington, DC: Promundo.

## REAL ATALAR ("UŞAQLARIN XİLASI" TƏŞKİLATI)

**Yer:** Uqanda

**Arayış**
"Məsuliyyətli, fəal və qayğıkeş (İngilis dilində "responsible, engaged and loving", qısaltması - REAL) atalar" təşəbbüsü münaqişədən sonrakı dövrdə şimali Uqandada gənc atalar arasında intim partnyor zorakılığı və uşaqlara qarşı sərt cəzalandırmanı [21] azaltmağa kömək məqsədilə "Uşaqların xilası" təşkilatı tərəfindən hazırlanmış və pilot qaydada icra edilmişdir. Proqram 2013-cü ildə sınaqdan keçirilərək, Uqandada Amuru rayonunun Atyak sub-mahalının səkkiz dairəsini əhatə edib və o vaxtdan Şimali Uqanda və Uqandanın Karamoca regionu boyunca genişləndirilib və Malavidə istifadə üçün uyğunlaşdırılıb. O, Afrikada "Uşaqların xilası" proqramlarında istifadə edilməyə davam edir.

**Fəaliyyət**
"REAL Atalar" layihəsi ilk dəfə icra olunarkən, 1-3 yaşlı uşaqlara valideynlik edən 16-25 yaşlı gənc atalar cəlb olunmuşdu. Gənc atalar icmada nüfuzlu olan yaşlıları öz mentorları kimi seçdilər. Hər mentor dörd ataya dəstək üçün təyin olundu. Altı ay ərzində hər mentor cütlüklərin evini 6 dəfə ziyarət etdi və atalarla 6 qrup iclası apardı. 44 mentor (bələdçi-təlimçi) seçildi və onlara gender, valideynlik və münasibətlər barədə əsas anlayışları, habelə ev ziyarətləri və qrup iclasları zamanı istifadə üçün praktiki bacarıqları əhatə edən 5 günlük təlim keçirildi. Atalara dəstək sessiyaları ataların icmadakı emosional şəkillərini və ədalətsiz gender normaları və məişət zorakılığı barədə refleksiyaya təkan vermək üçün mesajları əks etdirən plakatların nümayişi ilə müşayiət olundu. Sessiyalarda əhatə olunan mövzuları möhkəmləndirmək üçün mərkəzi görüş yerlərində zamanla ardıcıl şəkildə altı irimiqyaslı icma plakatları nümayiş etdirildi. Əldə edilmiş irəliləyişi və öyrənilənləri digər icma üzvləri ilə bölüşmək və ədalətli və qeyri-zorakı münasibətlər qəbul etmək öhdəliyini götürmək üçün hər bir mərhələnin sonunda icmada tədbir keçirilirdi.

Genişləndirmə mərhələsində (2016-2018) ölkədəki yeni icmaları əhatə edə bilmək və proqramı mövcud icma proqramlarına inteqrə etmək, ailə planlaşdırması üzrə qrup və fərdi sessiya əlavə etmək üçün kurrikuluma uyğunlaşdırmalar edildi. "REAL atalar" proqramı "Uşaqların Xilası" təşkilatının Karamocada Erkən Uşaqlıq Dövründə Qayğı və İnkişaf proqramına və Şimali Uqandada Məşğulluq və Dayanıqlı Dolanışıq üçün Gənclər Təşəbbüsünə inteqrə edildi.

[21] Sərt intizam tədbirlərinin tətbiqi yeddi fiziki və şifahi baxımdan zorakı davranışları, o cümlədən uşağı silkələmək və ya onun üzərinə çığırmaq kimi davranışları əhatə edən bir şkalada ölçülüb.

REAL Atalar sessiyaları aşağıdakı mövzuları əhatə edib:
• Atalıq
• REAL ata olmaq üçün tövsiyələr və məsləhətlər
• Ailə arzuları
• Ailəmi sevmək
• Ünsiyyət
• Valideynlik

**Vəsaitlər**
- REAL Atalar – icra üçün rəhbər qaydalar.[22]
- REAL Atalar – mentorlar üçün təlim kurrikulumu.[23]
- REAL Atalar – mentorlar üçün müzakirə bələdçisi.[24]
- REAL Atalar – mentorlar üçün resurs vərəqləri.[25]
- REAL Atalar – qadınların qrup sessiyaları.[26]

**Dəlillər**
2016-cı ildə proqramda iştirak edən və etməyən ataları müqayisə edən sorğu məlumatları əsasında proqramla bağlı aparılmış qiymətləndirmə müəyyən etdi ki, fərdi və qrup şəklində keçirilən mentorluq sessiyaları valideyn və uşaq arasında qarşılıqlı əlaqəyə, pozitiv valideynlik təcrübələrindən istifadəyə, fiziki cəza ilə bağlı münasibətlərə və tədbirlərə müsbət təsir göstərib. Proqramda iştirak edən kişilərin öz uşaqları ilə oynamaq, oxumaq, saymaq, əşyaları adlandırmaq kimi fəaliyyətlərə vaxt sərf etmək ehtimalı ikiqat yüksək idi. Onların həmçinin "Valideyn, uşaq özünü pis aparanda onu şillə ilə və ya vurmaqla tərbiyə eləməlidir" kimi mülahizələrdə fiziki cəzanın tətbiqi ilə razılaşmamaq ehtimalı daha yüksək idi. Proqramda iştirak edən kişilərin pozitiv valideynlik üsullarından istifadə ehtimalı demək olar ki, ikiqat yüksək idi. 2020-ci ildə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi Uqandanın Karamoca regionunda və Şimali Uqandada genişləndirilmiş proqramınrandomizasiya olunmuştipli tədqiqatını həyata keçirib. Tədqiqata ilkin vəziyyət, son vəziyyət və bir ildən sonrakı vəziyyət üzrə kəmiyyət əsaslı sorğu daxil olub. Proqramdan bir il sonra, proqramda iştirak etmiş ataların qeyri-zorakı ata olmaq ehtimalı Şimali Uqandada demək olar ki 3 dəfə, Karamocada isə 3.5 dəfə daha yüksək olub. Onların pozitiv valideynlik davranışları nümayiş etdirmək ehtimalı Şimali Uqandada 1.5 dəfədən çox, Karamocada isə demək olar ki 3 dəfə daha yüksək olub. Onların valideyn və uşaqlar arasındakı qarşılıqlı fəaliyyətdə iştirakı nəzarət qrupundakı atalarla müqayisədə Şimali Uqandada 2 dəfədən çox, Karamocada isə 3.5 dəfədən çox olub. Proqram həmçinin intim partnyor zorakılığının azalması ilə nəticələnib. Bir ildən sonra, proqramdakı ataların intim partnyor zorakılığı törətməmək ehtimalı nəzarət qrupundakı atalarla müqayisədə Şimali Uqandada demək olar ki 3 dəfə, Karamocada isə 3 dəfədən çox yüksək olub.

[22]https://irh.org/wp-content/uploads/2019/10/REAL-Fathers-Guidelines.pdf
[23]https://irh.org/wp-content/uploads/2019/10/REAL-Fathers_Core-Materials_Mentor-Curriculum_FINAL.pdf
[24]https://irh.org/wp-content/uploads/2019/10/REAL-Fathers_Core-Materials_-Mentor-Discussion-Guide-for-Low-Literate-Mentors-FINAL.pdf
[25]https://irh.org/wp-content/uploads/2019/10/REAL-Fathers_Core-Materials_Mentor-Resource-Sheets_FINAL.pdf
[26]https://irh.org/wp-content/uploads/2019/10/REAL-Fathers_Core-Materials_Womens-Group-Session-Guide_FINAL.pdf

**Qiymətləndirmələr**

- USAID (2020) Findings From Scale-Up Evaluation of the REAL Fathers Program in Uganda.[27] (Uqandada "REAL Atalar" Proqramının genişləndirilməsi üzrə qiymətləndirmənin nəticələri)
- Kim Ashburn et al (2016) Evaluation of the REAL Fathers Initiative on Physical Child Punishment and Intimate Partner Violence in Northern Uganda.[28] ("REAL Atalar" təşəbbüsünün Şimali Uqandada uşağın fiziki cəzalandırılması və intim partnyor zorakılığı ilə bağlı qiymətləndirməsi)

**Çətinliklər** [29]

Proqramla bağlı aparılmış qiymətləndirmələr qısamüddətli müdaxilələr vasitəsilə ailə kontekstində gender rolları, öhdəlikləri və davranışları ilə bağlı dərin kök salmış inancların aradan qaldırılması zərurətini ortaya çıxardı. 2016-cı ildə ilkin pilot proqramın sonunda aparılmış qiymətləndirmə müəyyən etdi ki, proqramda iştirak etmiş kişilərin ənənəvi gender rolları ilə bağlı düşüncələri əhəmiyyətli dərəcədə dəyişmədi. Hesab edildi ki, kişilərin həyat yoldaşları və ailədəki və icmadakı digər nüfuzlu fərdlərlə əlavə işin aparılması münasibət və davranışlarda daha əhəmiyyətli dəyişikliyə töhfə verə bilər.

**Öyrənilmiş dərslər** [30]

Həm uşaqlara qarşı zorakılığın, həm də intim partnyor zorakılığının formalarının qarşısının alınmasına yönələn məzmunun daxil edilməsi perspektivli praktika hesab edilir və "Atalıq Məktəbi" (Papa school) mövzularına daxil edilərsə, qısamüddətli və uzunmüddətli perspektivdə həm intim partnyor zorakılığının, həm də fiziki cəzadan istifadənin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxara bilər. Bu baxımdan, uşaqla pis rəftar və intim partnyor zorakılığının paralel şəkildə aradan qaldırılmasına yönələn təşəbbüslərlə ataların hədəflənməsi zorakılığın nəsillərarası ötürülməsinin qarşısının alınmasına istiqamətlənən səmərəli və perspektivli yanaşma hesab edilmişdir.

[27] https://irh.org/resource-library/real-scale-up-eval-uganda/

[28] https://irh.org/wp-content/uploads/2016/10/REAL_Fathers_Prevention_Science_2016.pdf

[29] Ashburn, K., Kerner, B., Ojamuge, D., & Lundgren, R. (2017). Evaluation of the responsible, engaged, and loving (REAL) fathers initiative on physical child punishment and intimate partner violence in Northern Uganda. Prevention science, 18(7), 854-864.

[30] eyni mənbə.

# ƏLAVƏ PROQRAM İCMALLARI

## ƏSİL ATA [31]

**Yer:** İsveç

**Arayış**

Fəal valideynliyə hazırlaşmaqda kişilərə kömək etmək və onların həyat yoldaşları ilə bərabərhüquqlu münasibətini təşviq etmək məqsədi daşıyan "Əsil ata" layihəsi 2003-cü ildə Stokholm mahalının beş bələdiyyəsində başlayıb. Layihə Stokholm Mahalının Şurası tərəfindən maliyyələşdirilib və "ABF Söderstörn" Təhsil Birliyi tərəfindən icra edilib. Layihə üç il davam edib.

**Fəaliyyət**

2003-cü ildə layihə 28 bələdçi-təlimçi seçmiş, onlara vahid kurrikulum və hazırlıq təmin edilmişdir. Bələdçi-təlimçilərə müzakirələri aparmaq və müəllim kimi deyil, bələdçi kimi hərəkət etmək üçün hazırlıq keçirilmişdir. Onlara davranış elmləri, uşaqlara qarşı zorakılıq və feminizm kimi mövzularda il ərzində 2-3 dəfə əlavə təlim keçirilib. Atalardan ibarət təqribən 200 qrup formalaşdırılıb, ümumilikdə 1000-ə yaxın kişi iştirak edib. Əksər iştirakçılar ilk dəfə ata olan şəxslər idi və onlar doğum evlərində olarkən, yaxud cütlüklər üçün valideynliklə bağlı təlimlərdə seçilib. "Əsil ata" layihəsi cütlüklər üçün valideynlik təlimini əvəz etmək deyil, ona töhfə vermək üçün nəzərdə tutulur. Dərslər doğuş ərəfəsində - bir dərs doğuşdan əvvəl, beş dərs isə doğuşdan sonra təşkil olunub. Dərslər tibb müəssisəsində keçirilib.

**"Əsil ata" seansları aşağıdakı mövzuları əhatə edib:**

- **Doğuş**
- **Yeni həyat**
- **Valideynlik**
- **Cütlüklər**
- **İş, ailə və asudə vaxt**
- **Ailə iclasları**

**Monitorinq və qiymətləndirmə**

Kurrikulum Stokholm Mahalının Şurası tərəfindən yoxlanılıb və onun gender aspektlərini nəzərə almasını təmin etmək üçün təlim materiallarını nəzərdən keçirmək və iclas və qrup məşğələlərini müşahidə etmək üçün Gender məsələləri üzrə məsləhətçi təyin olunub. İstiqamət təmin etmək üçün layihə menecerləri, dörd təlimçi və təhsil birliyinin və Stokholm Mahalının şurasından ibarət nəzarət qrupu formalaşdırılıb. Qrup il ərzində 4-5 dəfə iclas keçirib.

---

[31] Məlumat üçün: www.s-larcentra.seand Jouni Varanka and Maria Forslund, eds. (2006). Possibilities and Challenges? Men's Reconciliation of Work and Family Life - Conference Report.

# ATALIQ MƏKTƏBİ (İCTİMAİ TƏŞƏBBÜSLƏR MƏRKƏZİ) [32]

**Yer:** Kosovo

Arayış
Kosova üçün hazırlanmış Atalıq Məktəbində İsveçin nümunəvi təcrübələri istifadə edilmiş, yerli mədəniyyət və normalara uyğunlaşdırılmışdır. Model İctimai Təşəbbüslər Mərkəzi (CPİ) tərəfindən institusional çərçivəyə salınıb və məqsədi uşaqların həyatında ataların vəzifə və öhdəliklərini artırmaq, eləcə də ailə və cəmiyyətdə gender əsaslı davranış stereotiplərini dəyişməkdir.

**Fəaliyyət**
Atalıq məktəbinin bələdçi-təlimçilərindən üç meyara cavab vermək tələb olunur: uşağa malik olmaq, müsbət atalıq təcrübəsinə malik olmaq, atalıq məktəbinin keçirilməsi üzrə təlimdən keçmək. Onlara təlimçidən daha çox müəllim kimi yanaşılır və onların ictimai səhiyyə sahəsində mövcud qanunvericilik, Kosovonun sosial-demoqrafik xarakteristikası, Atalıq Məktəbinin fəaliyyətinə təsir edən müvafiq beynəlxalq konvensiya və sazişlər, o cümlədən BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası və ÜST-ün Uşaq Sağlamlığı və İnkişafı üzrə Avropa Strategiyası barədə məlumatlı olmaları tələb olunur. Proqram Kosovoda və ya bölgədə yaşayan, 1 yaşadək uşağı olan kişiləri və gələcək ataları hədəfləyir. Qruplar orta hesabla 5-15 iştirakçıdan ibarətdir. Atalıq məktəbinin sessiyaları təqribən 1.5 saat olmaqla, həftədə bir dəfə keçirilir. Kursa 8 sessiya daxildir. Bu sessiyaları tamamladıqdan sonra iştirakçılara Atalıq Məktəbi Sertifikatı verilir.

**Atalıq Məktəbinin sessiyaları aşağıdakı mövzuları əhatə edib:**
- **Hamiləlik müddətində atanın rolu**
- **Doğuşla bağlı miflər; doğuş zamanı iştirak**
- **Ana südü ilə qidalandırma; anaların doğuşdan sonrakı dövrdə depressiyası; cinsi həyat**
- **Uşağın inkişafı**
- **Hüquq və gündəlik həyat**
- **Gender və gender bərabərliyinin əsasları**
- **Demokratik və totalitar ailə**
- **Kişilərin fiziki və psixi sağlamlığı**
- **Uşağınızın gələcəyinə inam**

**Monitorinq və qiymətləndirmə**
Layihə İctimai Təşəbbüslər Mərkəzi regional təşkilatı tərəfindən icra edilib və monitorinqi aparılıb.

[32] Mats Berggren, Nikolay Eremin, Stanislav Kazansky, Vladimir Martsenyuk, Vladimir Motygin, and Andrey Turovets. (2010) Father School Step by Step. UNICEF, Moskva

## MIESSAKIT [33]

**Yer:** Finlandiya

**Arayış**

Miessakit, yaxud Kişi Assosiasiyaları Tərəfdaşlığı kişilərin psixi, psixoloji və sosial inkişafına dəstək göstərmək, sağlam ailə həyatını təşviq etmək və gender bərabərliyini gücləndirmək istiqamətində fəaliyyət göstərən qeyri-kommersiya təşkilatıdır. Onların başlıca donoru Finlandiya "Slot Machine" Assosiasiyasıdır və Finlandiyada 15 bölgədə fəaliyyət göstərirlər. Miessakit doğuşqabağı dərslərlə əlaqəli şəkildə ataların bir-birinə dəstəyini təmin edir.

**Fəaliyyət**

Layihə Atalıq Qruplarının (Papa Groups) rəhbərləri üçün təlim təmin etmiş, o cümlədən təlim mövzuları üçün bir gün, qrup təlimi və qrup dinamikasının əsasları üçün 2-4 gün təmin etmişdir. Təlimçilərə həmçinin sosial işlər üzrə təlim keçirilmişdir. Layihə qeyd etmişdir ki, təlimçilər kişilərdən ibarət olmalı, ataları qorxutmaq və əxlaq dərsi vermək əvəzinə pozitiv mühit yaratmalıdır. İştirakçılar yeni ata olmuş və ata olmağa hazırlaşan şəxslərdən ibarət idi və tibb mərkəzlərindən cəlb olunurdu. Atalıq Qrupları tibb mərkəzlərində görüşürdü. Dərslər beş sessiyadan ibarət idi: ikisi doğuşdan əvvəl, üçü isə doğuşdan sonra.

Görüş mövzuları xüsusi regional məsələləri müəyyən etmək üçün regional məsləhətləşmə çərçivəsində hazırlanırdı və ataların özü bu prosesi istiqamətləndirirdi.

**Monitorinq və qiymətləndirmə**

Layihə çərçivəsində, öz perinatal xidmətləri ilə əlaqəli şəkildə Atalıq Qrupları yaratmaq istəyən tibb mərkəzləri üçün regional səviyyəli məsləhətləşmələr və təlimçilər üçün praktiki nəzarət təmin edilib.



[33] Jouni Varanka and Maria Forslund, eds. (2006). Possibilities and Challenges? Men's Reconciliation of Work and Family Life - Conference Report.

# MİNSK YENİ ATALAR MƏKTƏBİ [34]

**Yer:** Belarus

**Arayış**
Minsk şəhərində "Yeni Atalar Məktəbi" proqramı "2008-2010-cu illərdə Gender bərabərliyinin təşviqi üzrə Milli Fəaliyyət Planı" kontekstində 2009-cu ildə yaradılıb. Proqramın məqsədi ataların vəzifələrinin və potensialının təşviqi vasitəsilə ailəni sosial institut kimi gücləndirməkdir. Proqram, İsveçin "Əsil ata" modelinə əsaslanıb. Proqram Ailə və Uşaqlar Dövlət Agentlik üçün Minsk Şəhər Sosial Xidmət Mərkəzi, Minsk Əhaliyə Sosial Xidmət Ərazi İdarələrinin mütəxəssisləri tərəfindən icra edilib.

**Fəaliyyət**
Bələdçi-təlimçilər uşaq inkişafı və tərbiyəsi üzrə təcrübəsi və ya hazırlığı olan kişilər arasından seçilib və onlara Minsk Şəhər Sosial Xidmət Mərkəzi tərəfindən hazırlıq keçirilib. Proqram ilk övladını gözləyən və ya hazırda ata olan gəncləri hədəfləyib. Dərslər doğum evləri və uşaq ambulator klinikaları ilə əməkdaşlıq şəraitində keçirilib.

Proqramın daha geniş şüarı aşağıdakı kimi olub: "Bu günün atalarından gələcəyin atalarına"

**Monitorinq və qiymətləndirmə**
Minsk Şəhər Sosial Xidmət Mərkəzinin iclasları və Minsk Sosial Xidmətinin Metodologiya Assosiasiyasının iclası zamanı, habelə fəal atalıq mövzusuna həsr olunmuş seminarlar və konfranslar zamanı layihə nəticələri gözdən keçirilib.

---

[34] Mats Berggren, Nikolay Eremin, Stanislav Kazansky, Vladimir Martsenyuk, Vladimir Motygin, and Andrey Turovets. (2010) Father School Step by Step. UNICEF, Moskva

# ŞİMAL ÜSLUBU [35]

**Yer:** Rusiya

**Arayış**
Rusiyada ilk Atalıq Məktəbi 2008-ci ildə Sankt-Peterburqda təşkil olunub. 2010-cu ildə Atalıq Məktəbini quran şəxslər Rusiya ərazisində Atalıq Məktəbi üzrə İlkin Təlimi həyata keçirmək üçün "Şimal üslubu" adlı qeyri-kommersiya təşkilatı yaratdı. Layihəyə Sankt-Peterburq Əmək və Sosial Siyasət Komitəsi və SİDA-nın dəstəyilə "Men21" müstəqil qeyri-kommersiya təşkilatı və Sankt-Peterburq Sosial-İqtisadi İnstitutu tərəfindən dəstək göstərilib.

**Fəaliyyət**
Proqramda tədris ödənişsiz əsasda könüllülər tərəfindən aparılır. Onlara mərkəzləşdirilmiş qaydada təlim keçirilmir, lakin təcrübələrini və öyrəndiklərini bölüşmək üçün mütəmadi olaraq görüşürlər. Kişilər daha çox doğum evlərində proqram barədə məlumat əldə edən həyat yoldaşları vasitəsilə cəlb olunub. Proqram ata olmağa hazırlaşan şəxslərə yönəlib. Dərslər ilkin olaraq Sankt-Peterburqda müxtəlif dövlət inzibati orqanlarının ofislərində keçirilib, zamanla təbii şəkildə inkişaf edib.

Atalıq Məktəbinin sessiyaları aşağıdakı mövzuları əhatə edib:
- Uşağın tərbiyəsi
- Sosial təminat və müavinətlər
- Uşaq sağlamlığı
- Yerlərə səfərlər: doğum evləri

Monitorinq və qiymətləndirmə
Layihənin monitorinqi İsveçin konsaltinq şirkətləri olan "Sprangbradan" və "AB Bonnie Communications" tərəfindən aparılıb. Şimal Üslubu təşkilatının fəailyyətlərinin yerli siyasətə təsiri hiss olunub. 2012-ci ilin iyul ayından bəri, Sankt-Peterburqun ailə siyasəti bəyan edir ki, hər bir rayonda Ata Məktəbi olmalıdır.

[35] Məlumat üçün: www.svrp.ruvəMats Berggren, Nikolay Eremin, Stanislav Kazansky, Vladimir Martsenyuk, Vladimir Motygin, and Andrey Turovets. (2010) Father School Step by Step. UNICEF, Moskva. və Fábián, K., & Korolczuk, E. (Eds.). (2017). Rebellious Parents: Parental Movements in Central-Eastern Europe and Russia. Indiana University Press.vəÅberg, P. (2014). Promoting Active Fathers: The Birth and Development of a Civic Initiative in Contemporary Northwestern Russia.

## İSLAHAT [36]

**Yer:** Norveç

**Arayış:** Osloda "Atalar Qrupu" layihəsi Ailə və Uşaq Məsələləri Nazirliyinin dəstəyilə, psixoloq Per Are Lokkenin rəhbərliyi altında icra olunub. O, müasir atalıq, maskulinlik və gender münasibətlərindən bəhs edən məşhur "Atanın inqilabı" kitabının müəllifidir.

**Fəaliyyət**
Layihə çərçivəsində dəstək və səlahiyyətləndirməyə xüsusi diqqət yetirməklə Atalar Qrupuna rəhbərlik etmək üçün dövlət tibb müəssisələrinin birindən iki kişi bələdçi-təlimçi seçilib. Layihədə bələdçi-təlimçilərin kişi olması vacib idi. Lakin dövlət tibb müəssisələrində işləyən kişilərin sayı çox az olduğundan, bu, çətin oldu. İştirakçılar yeni ata olmuş və ata olmağa hazırlaşan şəxslərdən ibarət idi və dövlət tibb müəssisələrindən cəlb olunurdu. Atalar Qruplarından biri spesifik olaraq həyat yoldaşı doğumsonrası depressiyadan əziyyət çəkən ataları hədəfləyib. Qruplar 14 həftə ərzində dövlət tibb müəssisəsində yeddi dəfə görüşüb. Ataların qrupları kifayət qədər yekcins olub: bütün iştirakçılar Norveçli idi və analarla münasibətdə idi. Lakin onlar kiçik problemlərdən tutmuş çox ciddi problemlərə qədər müxtəlif məsələlərlə üzləşirdi.

Atalıq qrupu sessiyaları aşağıdakı mövzuları əhatə edib:

- İkiqat qayğı təminatçısı kimi çıxış etmək
- Gərginlik
- Qəzəb və ümidsizlik
- İş və ailə həyatı arasında tarazlıq
- Düzgün olanı necə etməli
- Təcrübə mübadiləsi
- Özləri

**Monitorinq və qiymətləndirmə**
Qrup Atalar Qruplarının təsirlərinin necə ölçülməsi baxımından çətinliklərlə üzləşdi.

[36] Jouni Varanka and Maria Forslund, eds. (2006). Possibilities and Challenges? Men's Reconciliation of Work and Family Life - Conference Report.

## SIEMPRE PAPA [37]

**Yer:** ABŞ

**Arayış**
"Siempre Papa" və ya "24/7 Ata Kurrikulumu" ABŞ Milli Atalıq İnstitutu tərəfindən fəal atalığı təşviq etmək və həyat yoldaşları ilə gərgin münasibətləri aradan qaldırmaq məqsədilə hazırlanıb. Kurrikulum ABŞ ərazisində istifadə üçün uyğunlaşdırılmışdır.

**Fəaliyyət**
Proqram Merilendin Montqomeri mahalında Latın Amerikasından olan atalara xidmət edən icma əsaslı təşkilatın əməkdaşları tərəfindən icra edilib. Bələdçi-təlimçi olmaq üçün minimum təhsil tələbi olmasa da, bələdçi-təlimçilərə proqramla bağlı təlimdə iştirak etmək tövsiyə edilib. Kurrikulum Latın Amerikasından olan məhbus ataları hədəfləmək üçün uyğunlaşdırılıb. Hər qrup 6-8 atadan ibarət olub. İştirakçıların çoxu Mərkəzi Amerika ölkələrindən gələn immiqrantlar idi. Proqram iki versiyada - səhər və axşam icra olunmaq üçün layihələndirilib. Səhər sessiyaları əsas məlumatları təmin edir, axşam sessiyaları isə təlimçilərə müəyyən mövzu və fəaliyyətlərə daha dərindən nəzər salmaq imkanı verir. Hər iki versiya hər biri 2 saat davam etməklə 12 sessiyadan ibarətdir. Sessiyalar ataların yerləşdiyi islahedici müəssisədə keçirilib.

**Atalıq Məktəbinin sessiyaları aşağıdakı mövzuları əhatə edib:**
- Ailə tarixçəsi
- Kişi olmaq nə deməkdir
- Hisslərin nümayişi və idarə edilməsi
- Kişilərin sağlamlığı
- Ünsiyyət
- Atanın rolu
- Tərbiyə
- Uşaq inkişafı
- Cəlb olunmaq
- Ana ilə işləmək və birgə valideynlik
- Atalar və iş

**Monitorinq və qiymətləndirmə**
Siempre Papa 2006-2011-ci illərdə ilkin və son vəziyyət üzrə proqram sorğuları vasitəsilə qiymətləndirilib [38] və iştirakçıların 47%-i valideynlik bacarıqlarını yaxşılaşdırdığını bildirib. Daha geniş milli proqram çərçivəsində aparılan qiymətləndirmələr ataların ünsiyyət bacarıqlarının yaxşılaşdığını və onların valideynliyə və gender rollarına münasibətlərində müsbət dəyişikliklərin olduğunu müəyyən edib.

[37]McAllister, F., Burgess, A., Kato, J. & Barker, G., (2012). atalıq Parenting Programmes and Policy - a Critical Review of Best Practice. London/Washington D.C.: Fatherhood Institute/ Promundo/MenCare

[38]Identity's Responsible Fatherhood Program: Preliminary Results 9/06-1/11. Identity. http://store.fatherhood.org/c-92-program-esearchevaluation.aspx

## ATALIQ MƏKTƏBLƏRİ (PAPA SCHOOLS) [39]

**Yer:** Ukrayna

**Arayış**
2004-cü ildə İKEA fondu ilə tərəfdaşlıq yolu ilə, UNİCEF Çernobıl qəzasından təsirlənmiş ərazilərdə uşaqların sağlamlıqla bağlı ehtiyaclarını qarşılamağa səy göstərərək, ana və uşaqlar üçün tibb mərkəzləri təşkil etdi. Tibb mərkəzlərində Atalıq Məktəbləri 2007-ci ildən başlayaraq yerləşməyə başladı. Hazırda onlar Ukraynada 10-dan artıq inzibati bölgəni əhatə edir. Bunlar əsasən tibb və ailə xidmətlərinə çıxışın zəif olduğu ərazilərdir.

**Fəaliyyət**
Layihə bələdçi-təlimçilərin müsbət atalıq təcrübəsinə malik kişilər olmalı olduğunu müəyyən etdi. Lakin ataların bələdçi-təlimçi olmaq üçün konkret təhsil səviyyəsinə malik olması tələb olunmurdu. İştirakçılar ata olmağa hazırlaşan şəxslərdən ibarət idi. Atalıq Məktəbləri ana və uşaqlar üçün tibb mərkəzlərində keçirilirdi. Gələcək atalar doğuşdan əvvəl 6-7 dəfə, doğuşdan sonra isə 1-2 dəfə iki saatlıq sessiyalarda bir araya gəlirdi.

Atalıq məktəbi sessiyaları aşağıdakı mövzuları əhatə edib:
- Doğuşdan əvvəl
- Doğum zamanı
- Doğuşdan sonra
- Uşağın doğumu ilə bağlı hüquqi məsələlər
- Gender və gender bərabərliyinin əsasları
- Totalitar ailə məişət zorakılığının mənbəyi kimi

**Monitorinq və qiymətləndirmə:**
Proqramla bağlı qiymətləndirmədə[40], UNİCEF nəzərəçarpan nəticələr müəyyən etdi. Ərazilərin birində kişilərin doğumda iştirakı 4%-dən 75%-ə qalxmış, Jtomir bölgəsində doğumların 80%-də atalar iştirak etmişdi. İvano-Fankivsk bölgəsindəki xəstəxanalardan birində uşaq ölümündə 15% azalma, müstəsna olaraq ana südü ilə qidalandırmada 10% artım, uşaqlar arasında qanazlığında 69% azalma olduğu bildirilmişdir. Proqram müddətində doğumsonrası fəsadlaşmalarda 48% azalma, uşaqlıq travması səviyyələrində 58% azalma olmuşdur.

---

[39] McAllister, F., Burgess, A., Kato, J. & Barker, G., (2012). Fatherhood:Parenting Programmes and Policy - a Critical Review of Best Practice. London/Washington D.C.: Fatherhood Institute/ Promundo/MenCare
[40] https://www.unicef.org/evaldatabase/files/2010_Ukaraine_-_Evaluation_report_2010-002.pdf

# KEYS TƏHLİLLƏRİ

## KEYS TƏHLİLİ: SƏYYAR ATALIQ MƏKTƏBİ [41]

2009-cu ildə Belarusda Məsuliyyətli Atalıq Hərəkatının təşkilatçıları ata olmağa hazırlaşan şəxslərin resurs və məlumatlara olan ehtiyaclarını qarşılamaq məqsədilə, hərəkatın əhatə dairəsinin Minskdən kənara çıxması üçün pilot layihə həyata keçirdilər. Belarusun milli səhiyyə sistemi səhiyyə işçilərinə həkimlərlə ata olmağa hazırlaşan şəxslər arasında görüşlər təşkil etmək imkanı verir. Bu görüşlərdə iştirak etdikdən sonra, həkimlər ataları uşaq müavinəti almaq üçün arayışla təmin edə bilir.

**Çətinliklər**
Bir çox kiçik rayon və kəndlər atalıq proqramına dəstək göstərmək istəsə də, Əhali üçün Ərazi Sosial Xidmət Mərkəzlərinin əməkdaşları arasından təlimçilər tapmaq çətin olurdu, çünki onların çoxu qadın idi, proqram isə Atalıq Məktəblərinin kişilər tərəfindən keçirilməsini nəzərdə tuturdu. Bundan əlavə, rayonla regional mərkəzlər arasındakı məsafə bəzən 350 km-dən yuxarı olurdu ki, bu da bir çox ataların bu mərkəzlərə gəlməsini çətinləşdirirdi.

**Həll yolları**
Səyyar Atalıq Məktəbləri layihəsi Minsk şəhərindən olan təcrübəli təlimçilərdən ibarət səyyar dəstək qrupları formalaşdırdı. Səyyar "Atalıq Məktəbi" potensial yeni təlimçiləri ata olmağa hazırlaşan şəxslərlə iş üçün ilkin seminarla, yaxud standart proqram əsasında yerli Atalıq Məktəbinin təşkilinə dair seminarla təmin etmək üçün bölgələrlə əlaqələndirmə aparıb.

Səyyar Atalıq Məktəbi Qomel, Qrodno, Molodeçno, Zerjinsk, Fanipol, Sotlin, Slonim, Vitebsk, Moqilev, Brest, Borisov, Borbruisk, Lida, Reçitsa, Mayina Qorka və digər bölgələrdə sessiyalar keçirib. Hər bir rayonda gənc ailələr və gələcək valideynlərlə işin təşkili və dəstəklənməsində maraqlı olan Ərazi Mərkəzi yaradılıb. Bu mərkəzlər səyyar "Atalıq Məktəbi"nin fəaliyyətinə dəstək göstərib. Səyyar komanda ilkin əlaqələri və münasibətləri qurduqdan sonra texnologiyalar, o cümlədən virtual telekonfrans və iclas alətlərindən istifadə vasitəsilə əlavə təlim və təhsilə dəstək göstərilib.

---

[41] Mats Berggren, Nikolay Eremin, Stanislav Kazansky, Vladimir Martsenyuk, Vladimir Motygin, and Andrey Turovets. (2010) Father School Step by Step. UNICEF, Moskva.

# KEYS TƏHLİLİ: BƏRPA YÖNÜMLÜ ATALIQ

1999-cu ildə Minnesotanın Minneapolis şəhərində "Bərpaedici İcma və Ailə Çərçivələri" layihəsi bərpaedici valideynlik, zorakı davranış nümayiş etdirmiş atalarla iş üzrə layihənin icrasına başladı. Layihənin məqsədi onların uşaqları ilə münasibətlərini bərpa etmək üçün təhlükəsiz addımlar atmaq idi. Proqram ataların öz zorakı davranışlarına və öz ailələrinə göstərdiyi mənəvi təsirə görə məsuliyyəti üzərinə götürməyə və öz uşaqlarına qarşı empatiya nümayiş etdirməyə kömək etmək üçün atalar qruplarından istifadə etdi. Layihə artıq başa çatsa da, öyrənilmiş dərslər və iş prinsipləri Minneapolisdə "Məişət Zorakılığı Layihəsi"ndə kişilər üzrə digər valideynlik proqramlarına daxil edilib.

**Çətinliklər**

Zorakılıq tətbiq edən şəxslərə müdaxilə proqramı çərçivəsində işləyən "Bərpaedici İcma və Ailə Çərçivələri" layihəsinin əməkdaşları müəyyən etdi ki, kişilər öz övladları və məişət zorakılığının onlara təsiri barədə danışmağa həqiqi maraq göstərib. Onların layihəsindəki kişilər öz valideynlik bacarıqlarını yaxşılaşdırmaq və övladları ilə münasibətlərini bərpa etmək üçün ata biləcəkləri praktiki addımları öyrənmək istəsələr də, hardan başlayacaqlarını bilmirdi.

**Həll yolları**

Bərpaedici ədalətmühakiməsinin prinsiplərinə əsaslanaraq, "Bərpaedici valideynlik" layihəsinin icrasına başlanıldı. Layihədə əsas diqqət iki prioritetə yönəldilib:

1. Bütün ailə üzvləri üçün təhlükəsizliyin qorunub saxlanması
2. Ataların öz zorakı davranışına görə məsuliyyəti üzərinə götürməsinin artırılması

Proqramın əsasında dayanan prinsip ondan ibarət idi ki, ailədə travma baş verəndə valideynlərlə uşaq arasındakı münasibəti pozur və onu bərpa etmə prosesinə başlamaq valideynin öhdəliyidir. Bu o demək deyil ki, münasibət "təmir ediləcək". Proqram kişilərə öz uşaqlarından gözləntiləri baxımından real yanaşmağa və keçmişdə etdikləri hərəkətlərinin unudulmayacağını anlamağa kömək edir. Lakin bu, onlara gələcəkdə öz övladları ilə məsuliyyətli mümkün qarşılıqlı fəaliyyətlərə hazırlaşmaq imkanı verir.

Bərpaedici valideynlik qrupları altı əsas komponentə yönəlir. Bu komponentlər atalıq təliminin bir forması kimi onların özünəməxsusluğunu nümayiş etdirir:

- Bərpaedici valideynlik: valideynlər ailələri qarşısında məsuliyyət daşıyır və həm özlərinin, həm də uşaqlarının qayğısına qalmalıdır. Bərpa prosesinin tempini uşaqlar müəyyən edir. Fərdlər seçimlərə malikdir və öz davranışlarına görə cavabdehdir.

[42] Mathews, D. J. (2004). Restorative parenting: A strategy for working with men who batter and are fathers. Burada: http://menengage.org/wpcontent/uploads/2014/06/Restorative_parenting. pdf.

- Mütəxəssis fərziyyələri: Bütün valideynlər güclü tərəflərə və qeyri-sağlam davranışları dəyişmək potensialına malikdir. Valideynlər öz uşaqları üçün ən yaxşısını istəyirlər. Məişət zorakılığı uşaqların öz valideynlərini necə gördüyünə mənfi təsir edir və valideynlər və uşaqlar keçmişdəki hərəkətləri unutmur.
- Müqavilə: valideynin uşağa 30 öhdəliyini əks etdirən müqavilə. Bu öhdəliklərə "Səni hər cür zərərdən qoruyacağam" və "Bütün qərarlarına və fikirlərinə hörmət edəcəyəm" daxildir.
- Empatiya qurmaq: kişilər zorakılığın onların uşaqlarına necə təsir etdiyini anlamalıdır.
- Münasibətin bərpası üçün plan: ataların yerinə yetirdiyi strukturlu tapşırıqlar. Buraya ünsiyyət, özünü anlama, dinləmə, tədbir görmə, məlumatlandırma, qiymətləndirmə və öyrənilənləri gələcək davranışlara inteqrə etmə daxildir
- Özünəqulluq: zorakılıq hissləri alovlandıqda və ya vəziyyət zorakı hisslərə gətirib çıxara biləcəyi halda özünü idarə etmək. Çətin vəziyyətlərin zorakılıqla nəticələnməməsi üçün sağlam alternativlərin hazırlanması. Keçmişdə zorakılığa gətirib çıxarmış qərarları daha yaxşı anlamaq.

Bu yanaşma keçmişdə zorakı davranış nümayiş etdirmiş şəxslərlə iş prosesində həlledici müdaxilə nöqtəsi hesab edilir.

BİRLİKDƏ GENDER STEREOTİPLƏRİ VƏ GENDER ƏSASLI ZORAKILIĞA QARŞI: ATALIQ PROQRAMLARI ÜZRƏ MƏCMUƏ

#eu4genderequality